# Azərbaycan Respublikasının
# Auditorlar Palatası

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri barədə**

## H E S A B A T


**Məsul icraçılar:**

**Auditorlar Palatası Aparatının rəhbəri** — **Qəşəm Bayramov**

**Sədrin elmi-metodik məsələlər üzrə müşaviri** — **Nəcəf Talıbov**


**Bakı - 2025**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri barədə**

**H E S A B A T**

2025-ci il üzrə iş planının 3.1-ci "Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri" bəndinin icrasını təmin etmək məqsədilə Beynəlxalq Mühasiblər Federasiyasının üzvlük tələblərinə uyğun olaraq Palata tərəfindən 2025-ci il ərzində bu sahədə bir sıra işlər görülmüşdür.

Palatanın müraciətləri əsasında, Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) verdiyi müvafiq rəsmi icazələri əsasən və həmin qurumun tərcümə stradegiyasına uyğun olaraq  Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklərin tərcüməsi, redaktəsi və nəşri təmin edilmişdir.

Belə ki, 700 saylı (yenidən işlənilmiş) "Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartı ingilis dilindən Azərbaycan dilinə tərcümə və redaktə edilmişdir. Həmin BAS-a dair şərh hazırlanmış və Palata Şurasının 2025-ci il 28 fevral tarixli 374/8 nömrəli qərarı ilə bəyənilmişdir.

Həmin Şura qərarı ilə auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılmışdır ki, öz fəaliyyətlərində "BAS 700 (yenidən işlənmiş) – Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit  Standartının tətbiq edilməsini təmin etsinlər.

Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən 2025-ci ilin yanvar ayında auditor təşkilatları və sərbəst auditorlar üçün "BAS 700 (yenidən işlənmiş) – Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartının şərhinə dair seminarın keçirilməsi nəzərə alınmışdır.

Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən "BAS 700 (yenidən işlənmiş) – Maliyyə hesabatları üzrə rəy və hesabatın tərtib edilməsi" Beynəlxalq Audit Standartına dair şərhin mətninin Auditorlar Palatasının internet səhifəsinin "Normativ hüquqi aktlar" bölməsinin "Beynəlxalq Audit Standartları" altbölməsində yerləşdirilməsi təmin edilmişdir.

260 saylı (yenidən işlənilmiş) “İdarəetməyə məsul şəxslərlə əlaqələr” Beynəlxalq Audit Standartı ingilis dilindən Azərbaycan dilinə tərcümə və redaktə edilmiş, həmçinin həmin BAS-a dair şərh hazırlanmış və Palata Şurasının 2025-ci il 28 fevral tarixli 374/8 nömrəli qərarı ilə bəyənilmişdir. Həmin şərhə dair Palatanın üzvləri üçün 2025-ci iilin 25 fevral tarixində seminar keçirilmiş və nəticəsi barədə məlumat Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdiilmişdir.

600 saylı (düzəliş edilmiş) “Xüsusi-Mülahizələr - Qrup Maliyyə Hesabatlarının Auditi (o cümlədən bölmə auditorlarının işi)” Beynəlxalq Audit Standartı ingilis dilidən Azərbaycan dilinə tərcümə və redaktə edilmiş, həmçinin həmin BAS-a dair şərh hazırlanmış və Palata Şurasının 23 aprel 2025-ci il tarixli 375/4 nömrəli qərarı ilə bəyənimişdir. Həmin şərhə dair Palatanın üzvləri üçün 19 iyun 2025-ci il tarixində vebinar keçirilmiş və nəticəsi barədə məlumat Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

Həmin Şura qərarı ilə auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılmışdır ki, öz fəaliyyətlərində “600 saylı “Xüsusi Mülahizələr – Qrup Maliyyə Hesabatlarının Auditi” BAS və 600 saylı (düzəliş edilmiş) BAS-dan irəli gələn digər standartlara edilən müvafiq və məntiqli düzəlişlər”in tətbiqini təmin etsinlər.

Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən“600 saylı “Xüsusi Mülahizələr – Qrup Maliyyə Hesabatlarının Auditi” BAS və 600 saylı (düzəliş edilmiş) BAS-dan irəli gələn digər standartlara edilən müvafiq və məntiqli düzəlişlərə dair Şərh”in auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi və Palatanın internet səhifəsinin “Beynəlxalq Audit Standartları” bölməsində yerləşdirilməsi təmin edilmişdir.

“Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının” Auditi üzrə Beynəlxalq Audit Standartı ingilis diindən Azərbaycan dilinə tərcümə və redaktə edilmiş, həmçinin həmin BAS-a dair şərh hazırlanmış və Palata Şurasının 13 iyun 2025-ci il tarixli 377/2 nömrəli qərarı ilə bəyənilmişdir. Həmin şərhə dair Palatanın üzvləri üçün 10 mart 2025-ci il tarixində vebinar keçirilmiş və nəticəsi barədə məlumat Palatanın internet və sosial şəbəkərindəki səhifələrində yerləşdirilmişdir.

Həmin Şura qərarı ilə auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılmışdır ki, öz fəaliyyətlərində “Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının Auditi üzrə” Beynəlxalq Audit Standartının tətbiq edilməsini təmin etsinlər.

Kadr hazırlığı idarəsi (E.Hacıyeva) tərəfindən “Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının Auditləri üzrə” Beynəlxalq Audit Standartına dair şərhin 2025-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramına daxil edilməsi təmin edilmişdir.

Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən "Az Mürəkkəb Müəssisələrin Maliyyə Hesabatlarının Auditləri üzrə" Beynəlxalq Audit Standartına dair şərhin Palatanın üzvlərinə göndərilməsi və Palatanın internet səhifəsinin "Beynəlxalq Audit Standartları" bölməsində yerləşdirilməsi təmin edilmişdir.

570 saylı (düzəliş edilmiş) "Müəssisənin fəaliyyətinin fasiləsizliyi ehtimalı" Beynəlxalq Audit Standartına dair şərhin hazırlanması 2025-ci ilin IV rübünə keçirilmişidir.

Həmin standartın tərcüməsinə və nəşrinə 2025-ci ilin iyun ayında Beynəlxalq Mühasiblər Federasiyasından (İFAC) hüquq alınmış və 15 dekabr 2026-cı il tarixindən tətbiq edilməsi nəzərdə tutulur.

Peşəkar tərcüməçi tərəfindən işçi qaydada 15 fevral 2026-cı il tarixinədək Standartın Azərbaycan dilinə tərcüməsinin mümkünlüyünü nəzərə alaraq, göstərilən işlərin 2026-cı ilin 1-ci rübündə icrası nəzərdə tutulmuşdur.

Palatanın 2025-ci il üzrə İş Planının 1.2.3-cü "Dayanıqlı inkişafa dair İSSA 5000 Standartına dair şərhin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə həmin standart ingilis dilindən Azərbaycan dilinə tərcümə edilmiş, şərh hazırlanmış və sonuncu dəfə redaktə olunduqdan sonra 16 dekabr 2025-ci il tarixində Palatanın rəhbərliyinə təqdim edilmişdir.

Palatanın 2025-ci il üzrə İş Planının 3.1.2-ci "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) yeni versiyasının redaktəsi, nəşri və tətbiqi" bəndinin icrsı ilə əlaqədar Məcəllənin 2023-cü il nəşri son dəyişikliklər də nəzərə alınmaqla 15 dekabr 2024-cü il tarixindən qüvvəyə minən yeni versiyası ingilis dilindən Azərbaycan dilinə tərcümə və redaktə edilmiş, həmçinin nəşr etdirilərək aidiyyəti qurumlara göndərilmiş və xidməti istifadə üçün auditor təşkilatlarına və sərbəst auditorlara paylanılmışdır.

Palatanın 2025-ci il üzrə İş Planının 1.2.2-ci "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tətbiqi üzrə Təlimatın hazırlanması" bəndinin icrası ilə əlaqədar Təlimat hazırlanmış və Palata Şurasının 24 yanvar 2025-ci il tarixli 373/1 nömrəli qərarı ilə bəyənilmişdir.

Palatanın 2025-ci il üzrə İş Planının 10.2.1-ci bəndinin icrası ilə əlaqədar "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tətbiqinə dair" Palatanın üzvləri üçün 31 yanvar 2025-ci il tarixində vebinar keçirilmiş və nəticəsi barədə məlumat Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

Yuxarıda adları qeyd olunan yenidən işlənilmiş və ya düzəliş edilmiş Beynəlxalq Audit Standartları və onlara dair şərhlər, həmçinin Peşəkar Mühasiblərin Beynəlxalq Etika

Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tətbiqinə dair Təlimat xidməti istifadə üçün Palatanın internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilmişdir.

Palatada 04 aprel 2025-ci il tarixində onlayn formatda Beynəlxalq Mühasiblər Federasiyasının rəsmi icazəsi və həmin qurumun tərcümə strategiyasına müvafiq olaraq peşəkar tərcümə və redaktə edilməklə hazırlanmış və bütün dünyada peşəkar mühasiblər, auditorlar, təsərrüfat subyektlərinin rəhbərləri, sahibkarlar, iqtisadiyyatyönümlü ali təhsil müəssisələrinin müəllim və tələbələri üçün nəzərdə tutulmuş “Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)” adlı kitabın təqdimat mərasimi keçirilmişdir.

Tədbiri Palatanın sədri, professor Vahid Novruzov giriş sözü ilə açaraq qeyd etmişdir ki, “Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi” (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) Beynəlxalq Etika Standartları Şurası (İESCA) tərəfindən hazırlanmış və bütün dünyada peşəkar mühasiblər və auditorlar tərəfindən tətbiq edilmək üçün nəzərdə tutulmuşdur. Məcəllə 15 dekabr 2024-cü il tarixindən qüvvəyə minmiş və tətbiq olunmağa başlamışdır.

Palata 2008-ci ildən Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) tamhüquqlu üzvü olmaqla Beynəlxalq Mühasiblər Federasiyasına (İFAC) müraciətinə əsasən və bu beynəlxalq qurumun icazəsi ilə Məcəllə ingilis dilindən Azərbaycan dilinə tərcümə edilərək hazırlanmış və nəşr etdirilmişdir.

“Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)” bu peşənin ictimai maraqlar üzrə məsuliyyətini əks etdirərək, peşəkar mühasiblər üçün etikanın təməl prinsiplərini müəyyən edir. Bu prinsiplər peşəkar mühasibdən gözlənilən davranış standartlarını özündə ehtiva edir.

Məcəllə peşəkar mühasibdən təməl prinsiplərinə riayətetməmə ilə əlaqəli təhlükələrin müəyyən edilməsi, qiymətləndirilməsi və onları aradan qaldırmaq üçün müvafiq tədbirlərin görülməsi üçün tətbiq edilməsi tələb olunan konseptual əsasları müəyyən edir. Məcəllə mühasiblərə konseptual əsasları müxtəlif mövzulara tətbiq etməyə kömək etmək üçün həmin mövzular üzrə tələbləri və tətbiqi materialları özündə ehtiva edir.

Təqdimat mərasimində Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri, Palata Şurası yanında Auditor fəaliyyətinin metodoloji təminatı üzrə Komitənin sədri Nəcəf Talıbov çıxış edərək Məcəllə barədə ətraflı şərh vermişdir.

Nəşr etdirilmiş kitab xidməti istifadə üçün bir sıra dövlət qurumlarına, ali təhsil müəssisələrinə, peşəkar ictimai birliklərə göndərilmiş və Palatası üzvlərinə paylanılmışdır.

Tədbirdə çıxış edənlər, o cümlədən;

- Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik – Ziyad Səmədzadə;
- Azərbaycan Dövlət İqtisad Universitetinin “Maliyyə və audit” kafedrasının müdiri – Əvəz Ələkbərov;
- Naxçıvan Muxtar Respublikasının Maliyyə nazirinin müavini – Elvin Əlimərdanov;
- Bakı Biznes Universitetinin rektoru – İbad Abbasov;
- Azərbaycan Kooperasiya Universitetinin Elm və İnnovasiyalar üzrə prorektoru – Bəyalı Ataşov;
- Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Elmi işlər üzrə rəis müavini – Cəmilə Namazova;
- Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının İdarə Heyətinin sədri – Nuriyyə Novruzova;
- Auditorlar Palatasının Şurası yanında Beynəlxalq Audit Standartları üzrə komitənin sədri, “ANR Audit” MMC-nin direktoru-auditor – Namiq Abbaslı kitabın əhəmiyyətindən danışaraq onun tətbiqinin zəruri olduğunu vurğulamışdır.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

Tədbirin nəticəsi barədə məlumat Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmiş və “AZƏRTAC” İnformasiya Agentliyinə göndərilməklə mətbuatda işıqlandırılmışdır.

Yuxarıda qeyd edilənlərdən başqa 2025-ci ilin iyul-dekabr aylarında Beynəlxalq Mühasiblər Federasiyasından (IFAC) Palataya Beynəlxalq Audit Standartlarına və Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) edilmiş son dəyişikliklər barədə heç bir məlumat daxil olmamışdır.